

Giya Paçxataşvili

## Türkiyədə zəlzələ

Qonşu ölkədə
100-lə həyat
qəfil söndü...
Hər yeri titrədən torpaq
Hannibala döndü.
**06.02.2023**

## Zəlzələ "şəhidləri"

*Başın sağ olsun, Türkiyə*

Şaxta, uğultu, qorxu,
Təkanlar, qaçmış yuxu,
Titrək planetin oxu
Zülmə bürüdü yeri,
Zəlzələ "Şəhidləri"...

Evlər qum tək töküldü,
Bellər dərddən büküldü,
Arzu, ümid söküldü...
Biz öldük diri-diri,
Zəlzələ "Şəhidləri"...

Qəfil birləşən Dünya,
Yasda əlləşən Dünya,
Bu köməkləşən Dünya
Yox edər düyünləri,
Zəlzələ "Şəhidləri"...

Quraraă xoş gələcək...
Türkiyə dirçələcək...
Körpələr böyüyəcək
Qovarağ nəs illəri
Zəlzələ "Şəhidləri".

Givi şərik kədərə,
Şeiri yazmaz hədərə.
Dua edib min kərə
Xatırlayır Sizləri
Zəlzələ "Şəhidləri".
**09.02.2023**

## Dünya yığışmış...

Neçə gecədir
Təlaşa qoşulan yuxu
qəsd etmiş canıma;
Fikirlərim
Türkiyəyə uçmuş –
Dağıntılar altında
qalmışların yanına.
Dünya yığışmış
Dostluğ, Qardaşlığ
İmtahanına...
**10.02.2023**

***

Türkiyədən
Gələn xəbərlər
Əsəbləri yay kimi dartır;
Damlar altında
Həyat azalır,
Ölü sayı artır...
**09.02.2023**

## Türkiyə dirçələcək!

*Ərdoğanın dilindən*

"Dağıntılar altından
çıxarılan Həyatlar
Sabahkı nurlu Gələcək...
Yasda olan Türkiyəyə
toy, sevinc gələcək.
Çadırların yerində
yeni binalar tikiləcək,
Gömülmüşlərin xatirəsinə
Salınan Xiyabanda
güllər əkiləcək...
Türkiyə dirçələcək!"...
**12.02.2023**